*Azərbaycan dili və ədəbiyyat tədrisi*
Xüsusi buraxılış / 2025 May / 76–81
https://doi.org/10.48445/k3590-0275-7344-c

# Müstəqillik dövrü Azərbaycan ədəbiyyatında milli xarakterin ifadə vasitələri

***Ulduz Qəhrəmanova*** [1]

**XÜLASƏ**

*Müstəqillik dövrü Azərbaycan ədəbiyyatının əsas mövzularından biri bədii əsərlərdəki milli xarakter məsələsidir. Milli xarakterin vacib ünsürlərindən biri isə onun ümumbəşərilik prinsipinə uyğun olmasıdır. Milli dəyərlərə hörmət bəşəri keyfiyyətdir. İnsanın kimliyi genetik milli xüsusiyyətlərlə, eləcə də nəsil şəcərəsi ilə müəyyən olunur. Milli xarakterdəki millilik estetik kateqoriya kimi dəyərləndirilir. Məlumdur ki, yazıçı milli xarakteri bədii əsərə gətirməklə, ilk növbədə tarixi və milli dəyərləri ön plana çıxarır. Ədəbiyyatşünaslıqda millilik milli atributlarla müəyyənləşir. Azərbaycan ədəbiyyatında milli xarakterləri müəyyənləşdirən atributlar ümumtürk düşüncə tərzinin milli-etnik mənsubiyyəti və bu mənsubiyyətə daxil olan ar, namus, ismət, qadına hörmət, qohumluq əlaqələrinə bağlılıq və s. bu kimi dəyərlər sistemindən ibarətdir. Dünya və zaman dəyişsə də, milli-mənəvi dəyərlər dəyişmir. Milli mentalitet xalqın, millətin dəyərlər sistemidir. Ümumtürk milli mentalitetinə daxil olan – ailəyə sadiqlik, namus-qeyrətin qorunması, adət-ənənəyə, ümumtürk qayda-qanunlara əməl edilməsi kimi dəyərlər sistemi türk insanını xarakterizə edən ən ali və vacib cizgilərdir. Beləliklə, ümumtürk milli kimliyin "təməl kimliyi"nə, yəni "milli kimliyi"ə daxil olan amillər: ailə, din, soykök, milli-mənəvi dəyərlər, yəni inanclar, adət-ənənələrdir.*

**AÇAR SÖZLƏR**

*müstəqillik dövrü Azərbaycan ədəbiyyatı, genetik kimlik, milli-mənəvi dəyərlər sistemi, milli atributlar, ümumbəşərilik*

**MƏQALƏ TARİXÇƏSİ**

Göndərilib: 20.02.2025
Qəbul edilib: 16.03.2025

[1] Filologiya üzrə fəlsəfə doktoru, dosent, Azərbaycan Dövlət Pedaqoji Universiteti. Azərbaycan.
https://orcid.org/0009-0003-4418-9319 | ulduzkahraman1@gmail.com


Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

*Teaching of Azerbaijani Language and Literature*
Special Issue / 2025 May / 76–81
https://doi.org/10.48445/k3590-0275-7344-c

# Means of Expression of National Character in Azerbaijani Literature of the Period of Independence

***Ulduz Gahramanova*** [1]

**ABSTRACT**
*One of the main themes of Azerbaijani literature of the period of independence is the issue of national character in works of art. One of the important elements of national character is, of course, its response to the principle of universality. Respect for national values is a human quality. Human identity is genetic-national characteristics, genealogy. Nationality in national character is an aesthetic category. It is known that by introducing national character into a work of art, the writer first emphasizes historical-national values. In literary criticism, nationality is also determined by national attributes. The attributes that define national characters in Azerbaijani literature are the national-ethnic affiliation of the pan-Turkic way of thinking. And the value system included in that national-ethnic affiliation is: ar, honor, chastity, respect, respect for women, attachment to kinship ties, etc. The world and time change. What does not change are national-spiritual values. The national mentality is the value system of the people, the nation. The national value system included in the pan-Turkic national mentality – loyalty to the family, protection of honor and zeal, adherence to customs and traditions, pan-Turkic rules and regulations, and not exceeding the limits of the word, etc. The value system is the highest and most important features that characterize the Turkish man. Thus, the factors included in the "basic identity" of the pan-Turkic national identity, that is, "national identity", are: family, religion, ancestry, national-spiritual values, that is, beliefs, customs and traditions.*

**KEYWORDS**
*Azerbaijani literature of the independence period, genetic identity, system of national-moral values, national attributes, universality*

**ARTICLE HISTORY**
Received: 20.02.2025
Accepted: 16.03.2025

---

[1] Doctor of Philosophy in Philology, Associate Professor, Azerbaijan State Pedagogical University. Azerbaijan.
https://orcid.org/0009-0003-4418-9319 | ulduzkahraman1@gmail.com

Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0) 

## Giriş

Bədii əsərlərdə milli xarakter məsələsi müstəqillik dövrü Azərbaycan ədəbiyyatının əsas mövzularından biridir. Milli xarakterin vacib ünsürlərindən biri isə onun ümumbəşərilik prinsipinə cavab verməsidir. Milli dəyərlərə hörmət bəşəri keyfiyyətdir. İnsanın kimliyi genetik-milli **x**üsusiyyətləri onun nəsil şəcərəsi ilə bağlıdır. Milli xarakterdəki millilik estetik kateqoriyadır.

## Metodlar

Məqalədə qarşıya qoyulan məqsədlərin gerçəkləşdirilməsi praktik materialın təhlilinə əsaslanır. Belə ki, yazıçı milli xarakteri bədii əsərə gətirməklə ilk növbədə tarixi və milli dəyərləri təhlil edərək ön plana çıxarmağa çalışmışdır. Obrazın yaşadığı tarixi şərait, ailə, mühitlə qarşılıqlı münasibətləri izah edilərək milli xarakterin ifadə vasitələri probleminə aydınlıq gətirilmişdir. Bunun üçün müqayisəli və tarixi-müqayisəli yanaşma metodundan istifadə olunmuşdur. Bu yanaşma üsulu vasitəsilə məqalədə obrazların milli özünüdərki, mənliyi, şəxsiyyəti, milli-mənəvi dəyərlərə sadiqliyi, milli ənənələrə bağlılığı təhlil edilmişdir.

## Nəticələr

– milli obrazın daxili dünyasını tamamlayan milli detallar və həmin obrazın milli dəyərlər və adət-ənənələrlə bağlılığı müəyyənləşdirilmişdir.

– milli xarakterin milli mentalitet, adət-ənənələrlə bağlılığına aydınlıq gətirilmişdir.

– milli xarakterli insanlar milli genetik yaddaşa, milli mənliyə, milli özünüdərk hisslərinə malik obrazlar kimi təsvir edilmişdir.

– milli xarakter toplumun bütün inanclarını, dilini, mədəniyyətini, adət-ənənələrini, yaddaşını özündə daşıyan, həmçinin gələcək nəsillərə ötürən obraz kimi təhlil edilmişdir.

## Müzakirə

– Azərbaycan ədəbiyyatında milli dəyərlər sisteminə uyğun bədii əsər nümunələri yaratmaq müstəqillik dövrü sənətkarlarının yaradıcılığında ən önəmli vəzifə kimi müəyyən edilmişdir.

– Ümumtürk xalqlarının milli xarakterinin vahid ümumtürk ideologiyası, psixologiyası və fəlsəfəsindən qaynaqlandığı təsdiq edilmişdir.

– "Milli kimliyini dərk edən fərd bədii əsərdə milli xarakter səviyyəsinə qədər yüksələ bilər" fikri təhlil müstəvisinə gətirilmişdir.

– “Milli xarakter millətin psixologiyasından doğan xarakterdir” fikri təsdiq edilmişdir.

“Millət kimi formalaşmaq üçün milli-mənəvi birlik, milli şüurun formalaşması əsas şərt idi. Millət məfhumunu təşkil edən əlamətlərdən biri milli özünüdərkdir. Milli özünüdərk özünün bu və ya digər millətə mənsub olduğunu şüurlu olaraq anlamaqdır” (Salamoğlu, 2021).

Məlumdur ki, yazıçı milli xarakteri bədii əsərə gətirməklə ilk olaraq tarixi-milli dəyərləri qabarıq şəkildə sərgiləməyə çalışır. Ədəbiyyatşünaslıqda da millilik milli atributlarla müəyyənləşir. “Ədəbiyyatda, sənətdə xəlqilik, millilik, bəşərilik biri digərini tamamlayan, biri digəri ilə qarşılıqlı əlaqədə, vəhdətdə yaranıb formalaşan bədii kateqoriyalardır” (Mustafayev, 2021, s. 301).

Azərbaycan ədəbiyyatında milli xarakterləri müəyyənləşdirən atributlar ümumtürk düşüncə tərzinin milli-etnik mənsubiyyətidir. Bu milli-etnik mənsubiyyətə ar, namus, ismət, qadına hörmət, qohumluq əlaqələrinə bağlılıq və s. kimi dəyərlər daxildir. “Böyük, kamil sənət əsərlərində millilikdə bəşərilik vacib ictimai-estetik meyardır. Çünki hər bir fərd bəşər evinin övladı, sakinidir” (Yusifoğlu, 2001).

“Bəşəriliyə gedən yol bütün tarixi zamanlarda millilikdən keşmişdir” (Şəfizadə, 2022, s. 12). Bədii əsərlərdə milli mənəvi özünüdərk ideyası milli xarakterin başlıca xüsusiyyəti kimi xarakterizə edilir. Bu da milli yaddaşa, tarixi keçmişə, ümumtürk psixologiyasına bağlılıq deməkdir.

Dünya və zaman dəyişir. Dəyişməyən isə milli-mənəvi dəyərlərdir. Milli mentalitet xalqın, millətin dəyərlər toplusudur. “Sənətdə, bədii yaradıcılıqda millilik bəşəri ideallarların əsasıdır” (Şəmsizadə, 2012, s. 265).

“Millilik xalq həyatının, mənəviyyatının, psixologiyasının, ideologiyasının istinad nöqtəsidir. Əsl ümumbəşərilik, dünyəvilik milli formada meydana çıxır. Yəni millilik xəlqilikdən, ümumbəşərilik isə millilikdən qidalanır” (Əlimirzəyev, 2008). Milli xarakter milli dəyərlər sistemi çərçivəsində obrazın yaşadığı tarixi şərait, ailə, mühitlə qarşılıqlı münasibətlərdə öz mahiyyətini ortaya qoyur.

“Həqiqi milli əsər həqiqi ümumbəşəri məzmun kəsb edən əsərdir. Əsl bədii əsər milli məzmunlu, milli xarakterli, ümumbəşəri mövzulu əsərlərdir” (Mir Cəlal, Xəlilov, 2005). Milli xarakterin ifadə vasitələri aşağıdakılardır:

1. Obrazın daxili dünyasını tamamlayan milli detallar milli dəyərlər və adət-ənənələrlə möhkəm bağlılığında müəyyənləşir. Milli detallara kəlağayı, toy günü əllərin xına ilə bəzədilməsi, ər evinə cehiz aparılması və s. daxildir.

2. Obrazın zahiri dünyasını tamamlayan detallar obrazın geyim, davranış və s. mədəniyyəti ilə müəyyənləşir.

Bu detallar milli-mənəvi meyarlarla ölçülür. Milli-mənəvi meyarlar da əsrlərdən bəri xalqın mənəvi həyatına, psixologiyasına hopmuş genetik kodlardır. "Genetik kod qan birliyidir, milli özünüdərkin daxili prosesidir" (Multikulturalizmə giriş, 2019).

Milliliyin meyarları xalqın taleyini, tarixini, etnoqrafiyasını, milli ruhunu, psixologiyasını, milli dəyərlərini özündə cəmləşdirmək deməkdir. Yazıçı Muhsin Kadıoğlu "türk kimdir?" sualına belə cavab verir. "Türklər tarixi keçmişinə sadiq olan, varislik ənənələrini qoruyub saxlayan millətdir. Türk olaraq tarixi ilə qürur duymaq deməkdir" (Şəfizadə, 2022, s. 98).

Milli xarakter insanın milli özünüdərkinin, mənliyinin, şəxsiyyətinin, milli-mənəvi dəyərlərə sadiqliyinin, milli ənənələrə bağlılığının əsas göstəricisidir. Milli özünəməxsusluq milli ideologiya ilə bağlı olmaq, onun daşıyıcısı və təbliğatçısı kimi davranmaqdır. "Milli şüurun formalaşmasında milli mentalitetin də rolu böyükdür" (Multikulturalizmə giriş, 2019, s. 247). Millətin milli təfəkkürünü, psixologiyasını formalaşdıran meyarlara aşağıdakılar daxildir:

- milli xarakter,
- milli hisslər,
- milli özünüdərk.

Azərbaycan ədəbiyyatında bu meyarlara cavab verən bədii əsər nümunələrini yaratmaq müstəqillik dövrü sənətkarlarının yaradıcılığında özünəməxsus yer tutur.

Milli xarakter milli ideologiya ilə qarşılıqlı əlaqədədir. "Milli şüurun oyanışı vətəndaşlıq düşüncəsindən qidalanır" (Əliyev, 2008). Milli xarakter milli mentalitet, milli adət-ənənələrlə bağlı obrazdır. Milli xarakterli insanlar milli genetik yaddaşı oyaq olan, özündə milli mənlik, milli özünüdərk hisslərini formalaşdıran obrazlardır. Milli xarakter cəmiyyətin bütün inanclarını, dilini, mədəniyyətini, adət-ənənələrini, yaddaşını özündə daşıyır, həmçinin gələcək nəsillərə ötürür. Milli kimliyin formalaşmasında dil, mədəniyyət, ədəbiyyat faktoru xüsusi rol oynayır.

Milli kimliyi formalaşdıran amillərə aşağıdakılar daxildir:

- coğrafi amil,
- demoqrafik amil,
- etnoqrafik amil,
- tarixi-iqtisadi amil,
- ictimai-siyasi amil.

Bədii əsərdə millilik "milli şüura, milli təfəkkür tərzinə yiyələnmiş, vahid bir formada düşünən, vahid bir dildə danışan bir cəmiyyətin, toplumun dünyagörüşünün poetik təzahürüdür" (Əliyev, 2000, s. 278).

## Nəticə

Ümumtürk xalqlarının milli xarakteri vahid ümumtürk ideologiyası, psixologiyası və fəlsəfəsindən qaynaqlanır. Ümumtürk milli xarakterin, milli xüsusiyyətlərin göstəriciləri bunlardır: mərdlik, cəngavərlik, kosmopolitizm, qadına hörmət və s. bu kimi amillər bu gün də ümumtürk təhtəlşüurunda qorunmaqdadır. Milli kimliyini dərk edən fərd bədii əsərdə milli xarakter səviyyəsinə qədər yüksələ bilər. Milli xarakter millətin psixologiyasından doğulur və formalaşır.

## Ədəbiyyat

1. Əlimirzəyev, X. (2008). *Ədəbiyyatşünaslığın elmi-nəzəri əsasları.*
2. Əliyev, R. (2008). *Ədəbiyyat nəzəriyyəsi*. Mürtəcim.
3. Əliyev, M. (2000). *Ədəbiyyat nəzəriyyəsinin əsasları*.
4. Mir Cəlal., Xəlilov, P. (2005). *Ədəbiyyatşünaslığın əsasları.* Çaşıoğlu.
5. Mustafayev, M. (2021). *Ədəbiyyat nəzəriyyəsi.*
6. *Multikulturalizmə giriş.* (2019). AMEA.
7. Salamoğlu, T. (2021). *XIX əsrin sonu XX əsrin əvvəlləri Azərbaycan ədəbiyyatının aktual problemləri*. Elm və təhsil.
8. Şəmsizadə, N. (2012). *Ədəbiyyat nəzəriyyəsi*. PROQRES.
9. Şəfizadə, S. (2022). *“Müasir Azərbaycan və Türkiyə hekayələrində milli xarakter problemi (1995–2015-ci il)” dissertasiya işi.*
10. Yusifoğlu, R. (2001). *Ədəbiyyatşünaslığın əsasları.* ADPU.